# Səsvermə seçki qanunvericiliyinə uyğun keçirildi





Yanvarın 29-u ölkəmizin tarixinə bələdiyyə seçkiləri günü kimi düşdü. Fəallıq nümayiş etdirən vətəndaşlar seçki məntəqələrinə gələrək proqram və platformalarını yüksək dəyərləndirdikləri namizədə səs verdilər, onlara etimad göstərdilər.

Onu da qeyd edək ki, seçicilərin azad, sərbəst və şəffaf şəkildə səs vermələri üçün ən müasir texniki avadanlıqlarla təmin olunmuş məntəqələrdə hər cür şərait yaradılmışdı. Bu şəraiti seçicilər böyük razılıqla qarşılamışdılar.

7 saylı Səbail Rayon Seçki Dairəsinin 37 saylı məntəqəsində olarkən biz bunun şahidi olduq. Məntəqədə seçki prosesinin keçirilməsi müşahidəçilər tərəfindən də diqqətlə izlənilirdi. Əsas məqsəd o idi ki, bələdiyyə seçkiləri demokratik və şəffaf keçirilsin, hər hansı bir pozuntuya yol verilməsin.

Seçicilərlə yanaşı, seçki prosesini izləyən müşahidəçilərlə də görüşüb söhbət etdik, onların fikir və düşüncələrini öyrəndik. İlk həmsöhbətimiz olan Yeni Azərbaycan Partiyasının müşahidəçisi Məhsəti Əsgərova dedi ki, seçkilərin gedişini çox diqqətlə izləyirik. Seçkilərdə seçici fəallığı elə ilk dəqiqələrdən hiss olunmağa başladı. Məntəqədə seçicilərin səs vermələri üçün lazımi şərait yaradılıb. Seçki prosesi çox yüksək səviyyədə təşkil olunub. İndiyə qədər heç bir şikayət  qeydə alınmayıb. Proses seçki qanunvericiliyinə uyğun davam edir.

Öz təşəbbüsü ilə müşahidəçi olan Bəniyə Qarayeva dedi ki, seçki prosesi səhər saat səkkizdən başlayıb. Seçicilər məntəqəyə gələrək sərbəst şəkildə müəyyənləşdirdikləri namizədlərə səs verirlər. Onların səs vermələri üçün məntəqədə hərtərəfli şərait var. Ötən müddət ərzində heç bir nöqsan müşahidə etməmişik. Məntəqədə işləyən komissiya üzvləri seçicilərlə maarifləndirmə söhbətləri aparır, səsvermənin qaydalarını onlara ətraflı izah edirlər. Hər kəs öz işini, öz vəzifəsini məsuliyyətlə yerinə yetirir.

- Mən də öz təşəbbüsümlə seçkilərdə müşahidəçi kimi iştirak edirəm, - deyə Şəlalə Seyidova söhbətimizə qoşuldu:

- Vətəndaşların seçkilərdə fəal iştirak etməsi bizi çox sevindirir. Məntəqəyə daxil olan insanların üzü gülür, gözlərindən sevinc duyulur. Hər addımda hiss olunur ki, xalqımız bələdiyyə seçkilərinə böyük önəm verir, onu yüksək dəyərləndirir. Ona görə də səhər lap ertədən ən yaxşı namizədə səs vermək üçün məntəqəyə gəlirlər. Düşünürəm ki, seçkiyə verilən yüksək  dəyər bu günümüzə, sabahımıza və gələcəyimizə olan münasibətdir. Bu, qazanılacaq uğurlardan və zəfərlərdən xəbər verir.

Yeni Azərbaycan Partiyasından müşahidəçi olan Şövkət Həsənli dedi ki,  yaşlı bir kişi səs verməyə gəlmişdi. Bunu görəndə çox sevindim. Bu insanların yaşı çox olsa da vətəndaşlıq məsuliyyətlərini unutmurlar. Bilirlər ki, seçkilərdə hər səsin yeri var. Gənclərimiz də belə yaşlı insanlara baxıb nümunə götürür, yüksək ovqatla məntəqələrə gəlib səsvermə prosesində fəal iştirak edirlər. Seçki prosesində heç bir qanun pozuntusu müşahidə olunmayıb. Bütün bunlar seçkiyə yüksəksəviyyəli hazırlığın nəticəsidir.

Daha sonra müşahidəçilərdən Mehriban İsmayılova, Kəmalə Əlizadə, Aynur Rəhimli, Suqra Qurbanova və başqaları ilə görüşüb söhbət etdik. Onlar seçki prosesinin çox yüksək səviyyədə, fəal şəkildə keçirildiyini, heç bir qanun pozuntusunun qeydə alınmadığını bildirdilər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 30 yanvar (№ 20).- S.4.